

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev


# MÜBARİZ KEŞİKDƏ

16 iyul 2020-ci il
Cümə axşamı

№ 24 (3489)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin dəfn mərasimi zamanı telefon vasitəsilə şəhid hərbi qulluqçuların ailə üzvlərinə dərin hüznlə başsağlığı verib.**

**İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

*Ətraflı gələn sayımızda.*

***Ölkəmizin rəhbəri iyulun 10-da milli bayram münasibətilə Monteneqronun Prezident zati-aliləri cənab Milo Cukanoviçə təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı İlham Əliyev iyulun 13-də Fransa Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Emmanuel Makrona təbrik məktubu ünvanlayıb.***

***Azərbaycan Prezidenti iyulun 14-də "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə fərman imzalayıb.***

## Birinci vitse-prezidentdən milli həmrəyliyə çağırış

"Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq! Bizim torpağımız, Vətən uğrunda mübarizəmiz müqəddəsdir! Bizim işimiz haqq işidir və Allah bizimlədir! Düşmənə layiqli cavab verildi və bu, hər zaman belə olacaqdır! Biz daha da güclü olmalıyıq və olacağıq, daha sıx birləşəcəyik! Şəhid analarına və atalarına öz dərin kədərimi və hörmətimi bildirirəm. Bu çətin günlərdə Azərbaycan xalqı sizinlədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaralı əsgərlərimizə tezliklə şəfa versin! Allah Azərbaycanı və xalqımızı qorusun!".

Bu sözlər Azərbaycan Respublikasının Birinci vitse-Prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımda yer alıb.

## Vətəndaşlara dövlət dəstəyi

Azərbaycanda ünvanlı sosial yardım alan şəxslərin sayı bu ilin əvvəlində 70 min ailə idisə, pandemiya dövründə prosedurlar və qaydalar sadələşdirilib və bu proqramdan yararlananların sayı 14 min artıb.

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İslahat İcmalı"nın xüsusi buraxılışında bildirilib.

Qeyd edilib ki, ünvanlı sosial yardım 84 min ailədən olan 350 min insana təqdim olunur. Artımın maliyyə yükü isə 8 milyon manatdır. Buraxılışda 14 min şəxsin ödənişlərinin müddətinin uzadıldığı və onların təqaüd almağa dəvam etmələrinə şərait yaradıldığı da diqqət çəkib. Bu tədbirin maliyyə yükü isə 3 milyon manatdır.

## Qaydalara əməl etmək öz müsbət nəticəsini verir

"Əhalinin say tərkibinə, xəstələnənlərin sayına, digər ölkələrin və Ümumdünya Səhiyyə Təşkilatının statistikalarına baxanda demək olar ki, ölkəmiz virusla mübarizədə çox irəlidədir. Hazırda 100 minə yaxın tibb ordumuz var. Hər birimiz xəstəliklə mübarizədə səfərbər olmuşuq. Aparılan müalicələrin yüksək keyfiyyətli olması, vaxtında görülən profilaktik tədbirlər bəhrəsini verir. Xəstəlikdən sağalan vətəndaşlar çoxdur. Qabaqcıl ölkələr virusla mübarizədə hansı tədbirləri həyata keçirirsə, onlar ölkəmizdə də tətbiq olunur. Həm tibbi biliklərimiz, həm də təchizatımız COVID-19-la uğurla mübarizə aparmağa imkan verir". Bu fikirləri TƏBİB-in şöbə müdiri Şükür Eyvazov deyib.

"Bir ay əvvəl vətəndaşlar arasında virusun mövcudluğuna inanmayanlar çox idisə, indi xeyli azalıb. Hazırda vətəndaşlar özlərini virusdan qoruyur, qoyulan qaydalara daha diqqətli yanaşırlar. Bundan öncəki ay tibbi maskadan istifadə edən az idisə, indi daha çoxdur. Bu da öz nəticəsini verir. İnanıram ki, belə davam edərsə, yaxın zamanlarda yoluxma sayı da azalacaq. Həmçinin sağalanların sayı artaraq yoluxanları üstələyəcək", - deyə o, qeyd edib.

## *AZƏRBAYCAN RESPUBLİKASI BAŞ PROKURORLUĞUNUN VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTLƏRİNDƏN*

Məlum olduğu kimi iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribat törətmiş, iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi, eləcə də dinc əhalini və mülki obyektləri atəşə tutmuşlar.

Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri bu təxribatın qarşısını qətiyyətlə almış, cavab atəşi ilə düşmənin dayaq məntəqələri, atəş nöqtələri, müdafiəsinin dərinliyindəki ehtiyatlar, çox sayda döyüş texnikası və canlı qüvvəsi məhv edilmişdir. Hazırda döyüşlərin baş verdiyi ərazidə əməliyyat şəraiti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır.

Ermənistanın bu hərbi təxribatı qarşısında Azərbaycan xalqı öz birliyini, qəti iradəsini və düşmənə qarşı barışmaz mövqeyini bir daha göstərmiş, qəhrəman şəhidlərimiz böyük izdihamla dəfn edilmiş, ölkəmizin müxtəlif şəhər və rayonlarında Azərbaycan Silahlı Qüvvələrinə dəstək yürüşləri keçirilmişdir.

*Ardı 2-ci səhifədə.*

# PREZİDENT İLHAM ƏLİYEV:
## *"Bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür"*



İyulun 12-dən başlayaraq, Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində işğalçı ölkənin həyata keçirdiyi təxribatlar nəticəsində vəziyyət kifayət qədər gərginləşib. Erməni ordusunun Azərbaycana məxsus mövqeləri ələ keçirmə cəhdinin qarşısını alan 11 nəfər hərbiçimiz - General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Mahmudov Rəşad, gizir Yaşar Babayev, gizir İlqar Zeynallı, çavuş Sadıqov Vüqar Lətif oğlu, baş əsgər Məmmədov Elşad, əsgər Daşdəmirov Xəyyam və əsgər Elçin Mustafayev şəhid olublar, yaralılarımız var.

Şəhidlərimiz böyük izdihamla torpağa tapşırılıb.

Düşmənin alçaq təxribatı ilə əlaqədar olaraq iyulun 13-də Azərbaycan Prezidenti İlham Əliyevin sə drliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Dövlətimizin başçısı iclasda çıxış edərək bildirib ki, birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir: "Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbiçilərimiz, eyni zamanda mülki şəxslər həlak olmuşdur. Dünən günorta saatlarında onların növbəti təxribatı nəticəsində bir neçə hərbiçimiz həlak olmuşdur. Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbiçilərimiz həlak olub və yaralanıb. Allah şəhidlərimizə rəhmət etsin, yaralı hərbiçilərimizə Allahdan şəfa diləyirəm". Prezident deyib ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınıb, adekvat cavab verilib: "Hərbiçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər".

Ali Baş Komandan bildirib ki, iyulun 13-də sərhəddə gərgin vəziyyət davam edib: "Dünən gecə bütün aidiyyatı qurumlarla, komandanlarla əlaqədə idim. Bu gün səhər tezdən də mənə operativ məlumat verilib və sərhəddə vəziyyət sabitləşməyib. Bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbiçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq".

Dövlət başçısı rəsmi Bakının operativ şəkildə atdığı addımlardan da bəhs edib: "Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik, onlar öz gözləri ilə vəziyyəti görsünlər. Görsünlər ki, kim bu hərbi təxribatı törədib. Bu hərbi təxribat nəticəsində nələr baş verib və kim vəziyyətin gərginləşməsinə cavabdehlik daşıyır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq".

Prezident deyib ki, Ermənistanda daxili vəziyyət artıq böhranlı həddə çatıb: "Daxili çaxnaşmalar geniş vüsət alıb. Eyni zamanda ölkəmizin son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar onları çox narahat edir və onlarda paxıllıq hissini daha da gücləndirib. Xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətimiz, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi, əlbəttə ki, Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurubdur. Eyni zamanda mötəbər kürsülərdən müntəzəm olaraq həm münaqişənin tarixi ilə, həm bölgənin tarixi ilə bağlı gətirdiyimiz konkret faktlar, inandırıcı əsaslandırmalar, əlbəttə ki, onların təbliğatını alt-üst edir. Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var və bu sənədləri biz indi geniş beynəlxalq ictimaiyyətə təqdim edirik. Eyni zamanda bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır".

Ölkə başçısının sözlərinə görə, bu təxribatın digər səbəbi odur ki, son vaxtlar Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb: "Bizim təşəbbüsümüzlə beynəlxalq təşkilatların zirvə görüşləri keçirilib. Bizim təşəbbüsümüzlə BMT Baş Assambleyasının xüsusi sessiyası baş tutub. Bu təklifi, bu təşəbbüsü 130-dan çox ölkə dəstəkləyib və Ermənistan bu təşəbbüsün əleyhinə çıxıb və bir daha özünü rüsvay edib, bir daha özünü dünyadan təcrid edib...". Prezident iclasda hər kəsi əmin edib: "Mən bir daha demək istəyirəm ki, dünən və bu gecə düşmənə adekvat cavab verilib. Hərbiçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbiçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik".

Sonra Təhlükəsizlik Şurasının iclası qapalı rejimdə davam edib.

# GƏNC ZABİTLƏR VƏZİFƏLƏRƏ TƏYİN OLUNDULAR



**İyulun 13-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmalarına həsr olunmuş tədbir keçirilib.**

**Nazir, general-polkovnik Vilayət Eyvazov iştirakçıları zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb.**

Daxili İşlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.



Sonra Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov Nazirliyə Bakı qeydiyyatında olan 37 məzunun dəvət edildiyini bildirmiş, vakant vəzifələrin və namizədlərin siyahısını elan etmişdir.

Daha sonra püşkatma yolu ilə təyinat keçirilmişdir. Polisin orta rəis heyəti vəzifələrinə iddiaçı olanlar həmin vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkmiş və ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinə təyinat almışlar.

Daxili İşlər naziri Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

# Mütəşəkkil cinayətkar dəstə ifşa olundu

## Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları subsidiya üçün ayrılmış vəsaiti mənimsəyənləri qanuna təslim ediblər.

Məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" fərmanından irəli gələrək cari ilin əvvəlindən fermerlərə dövlət yardımlarının vahid mexanizm vasitəsilə çatdırılması prosesinə başlanılıb. Lakin həmin vəsaitlərin təyinatı üzrə istifadə olunmaması və bir qrup mütəşəkkil cinayətkar dəstə halında birləşən şəxslər tərəfindən mənimsənilməsində əsaslı şübhələr olduğundan bu istiqamətdə Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun əməkdaşları, Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssislərinin iştirakı ilə birgə xüsusi əməliyyat tədbirləri keçiriblər.

Belə ki, kənd təsərrüfatına dövlət dəstəyindən sui-istifadə edərək bu sahəyə ayrılmış vəsaitləri saxta sənədlərə əsaslanan maliyyə əməliyyatları ilə nağdlaşdıraraq ələ keçirən mütəşəkkil dəstəyə daxil olan 30-a yaxın şəxsin dairəsi müəyyənləşdirilib. Həmin şəxslər ətrafında kompleks əməliyyat tədbirləri hazırlanaraq həyata keçirilib, onların cinayət əməlləri qeydə alınaraq zəruri sübutlar toplanılıb. Cinayətkar dəstəyə rəhbərlik edən Quba rayon sakini Elnur Haxtari və İmişli rayon sakini Hümmət Həsənov, eləcə də əlaqədar şirkətlərin vəzifəli şəxsləri də daxil olmaqla ümumilikdə 12 nəfər əməliyyat nəticəsində saxlanılaraq Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gətiriliblər.

Araşdırma zamanı müəyyən olub ki, həmin şəxslər əvvəlcə Quba, Xaçmaz, İmişli, Şəmkir və sair rayonlarda fəaliyyət göstərən fermerlərə məxsus subsidiya vəsaitlərinin köçürüldüyü kartları qanunsuz olaraq öz əllərində cəmləşdiriblər. Daha sonra dəstə üzvləri onlara yaxın olan adamların adlarına formal hüquqi şəxslər yaradaraq müxtəlif əmtəəsiz maliyyə əməliyyatları aparmaqla vəsaitləri nağdlaşdıraraq mənimsəyiblər.

İlkin araşdırmalarla həmçinin o da müəyyən olunub ki, dəstə üzvləri tərəfindən yaradılan "High Agro", "Rövşənoğlu Agro" MMC-lər və digər 6 fiziki şəxs vasitəsilə cari ilin 3 ayı ərzində Respublikanın ayrı-ayrı bölgəsindən 2 mindən artıq fermerə məxsus subsidiya kartları toplanılıb. Daha sonra kartlardakı pul vəsaitləri saxta sənədlər əsasında formal şəxslərin adlarına yaradılmış şirkətlərin bank hesablarına köçürülüb və 25-40% ödəniş müqabilində nağdlaşdırılıb. Bu qanunsuz maliyyə əməliyyatları nəticəsində ümumilikdə 5.000.000 manata yaxın subsidiya üçün ayrılmış maddi vəsait təyinat üzrə istifadədən yayındırılaraq dəstə üzvləri tərəfindən mənimsənilib.

Əməliyyat zamanı dəstə başçılarının istifadə etdikləri ofislərə, avtomaşınlara və qeyri-yaşayış sahələrinə baxış zamanı çoxsaylı fermer kartları, külli miqdarda nağd pul, kartlardan vəsaitlərin yerində silinməsi üçün istifadə edilən mini POS-terminallar, elektron məlumat daşıyıcıları, kart sahibi olan fermerlərin siyahıları və sair maddi sübutlar aşkar olunaraq götürülüb.

Faktla bağlı saxlanılan şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Dəstə üzvləri barəsində Nərimanov rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. İş üzrə müvafiq istintaq və əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, dövlət tərəfindən kənd təsərrüfatı sahəsinin daha da inkişafı üçün fermerlərin kart hesablarına köçürülən subsidiyaların nağdlaşdırılması və başqa təyinatlar üzrə istifadəsi qadağan olunub. Həmin vəsaitdən kənd təsərrüfatı ilə məşğul olan şəxslər yalnız nağdsız ödəmələr etməklə gübrə, toxum və aqrar sektorda istifadə olunan sair məhsullar əldə edə bilərlər.

# Döyüş gedən bölgədə polisin fəaliyyəti

**İyulun 12-də düşmənin ağır texnikadan və artilleriyadan atəş açaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətindəki mövqelərimizi ələ keçirtməyə cəhd göstərməsinin qarşısı ordumuz tərəfindən qətiyyətlə alındı.**

Həyata keçirilən əks-həmlələrlə düşmən Aprel döyüşlərində ona sarsıdıcı zərbələr vuran Azərbaycan əsgərinin gücünü bir daha gördü. Düşmənin canlı qüvvəsinin, texnikasının məhv edilməsi kadrları hər birimizdə qürur hissi yaratdı. Cənab Prezidentin də dediyi kimi hərbiçilərimizin qisası alındı, düşmən yerinə oturduldu.

Düşmənin cəbhənin müxtəlif istiqamətlərində təxribatlara əl atması gözləniləndir və hər an genişmiqyaslı müharibə başlaya bilər.

Ancaq bu gün Ermənistanın müharibə aparmaq, Azərbaycanın qarşısında dayanmaq, müqavimət göstərmək gücü yoxdur. İqtisadiyyatı çökmüş, insanları ümidsizliyə qapılmış, beynəlxalq arenada artıq təcavüzkar ölkə kimi tanınmış Ermənistandakı durum çox acınacaqlıdır. Yəqin ki, yaxın zamanda düşmən ölkədə siyasi xaosun da şahidi olacağıq...

Belə bir həssas dönəmdə polisin fəaliyyəti də diqqət çəkdi. Azərbaycan Polisinin bəlli döyüş təcrübəsi var. Ordumuzun formalaşmadığı dönəmlərdə torpaqlarımızın, ərazi bütövlüyümüzün qorunmasında polis əlinə silah alıb döyüşdü, sırasından yüzlərlə şəhid verdi...

Müharibə gedən bölgədə polisin üzərinə daha böyük məsuliyyət düşür. Biz bunun Aprel döyüşləri zamanı bir daha şahidi olduq. Əsgərinə kömək üçün minlərlə insanın təmas xəttinə toplaşması, bəzi qrupların hətta aksiyalar təşkil etməsi, müəyyən çətinliklər yaradırdı. Ancaq insanların Vətənpərvərlik coşqusunu, torpaqlarımızı azad etmək üçün düşməndən qisas almaq istəyini, belə deyək, polis idarə edə bildi. Ani bir diqqətsizlik böyük fəsadlara yol aça, mülki əhalinin zərər görməsi qarşıya qoyulan hədəflərə çatmağa əngəl ola bilərdi. Odur ki, kifayət qədər təcrübəli həmkarlarımızın idarəetmə bacarığı, psixoloji təsir gücü əlavə problemlərin yaranmasının qarşısını aldı. Aprel döyüşlərindən sonra cəbhəyanı ərazilərdə ölkə rəhbərliyinin təşəbbüsü ilə əlavə polis məntəqələrinin yaradılması həm də polisə olan inamın göstəricisi idi. Vətəndaşlarımızın da dediyi kimi polisin peşəkarlığı, qətiyyəti, baş verən hadisəyə anındaca reaksiya verməsi ordumuzun cəbhədə uğur qazanmasının əsas şərtlərindəndir.

Aprel döyüşlərindən sonra xidməti ezamiyyətdə olarkən cəbhənin Goranboy və Füzuli istiqamətlərində yaradılmış polis məntəqələrində xidmət aparan həmkarlarımızla söhbət zamanı onların vətənpərvərliyi ilə yanaşı, ayıq-sayıqlığının da şahidi oldum.

**Füzuli RPŞ-nin rəisi, polis polkovniki Xaqani Məmmədovun** "Müharibə gedən bölgədə polis fəaliyyətini necə qurur?" sualımıza cavabı belə oldu: "Polisin ən birinci işi insanları panikaya düşməkdən qorumaq, dezinformasiyaların qarşısını almaqdan ibarətdir. Asayişin qorunmasında ayıq-sayıqlıq birə-beş artırılmalıdır. Hər hansı bir təhlükənin qarşısı anındaca alınmalıdır. Bir sözlə, polis döyüşən əsgər, sərhədi qoruyan sərhədçi olmalıdır..."

Tovuzda da eyni hadisələrin şahidi olduq. Tovuzla əlaqə saxladıqda məlum oldu ki, **Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Şirzad Əsgərov** Ağdam kəndindədir. Hadisə yerindən çəkilmiş kadrlarda da polisin həssas davranışı diqqət çəkirdi. Əməkdaşlar əraziyə axın edən vətəndaşlarımızı döyüş gedən bölgədən uzaqlaşdırmaq üçün danışıqlar aparır, təhlükəsizlik qaydalarına əməl etmələrini onların diqqətinə çatdırırdılar. Əlbəttə ki, müharibə gedən bölgədə polisin fəaliyyəti sadaladıqlarımızla bitmir. O, bütün güc strukturları ilə birgə fəaliyyət göstərir, hətta onları koordinasiya edir.

Bir daha şahidi olduq ki, güclü lider, güclü iqtisadiyyat, sabitlik cəbhədə qazanılan qələbələrin qarantıdır. Arxa cəbhəsinə arxayın olmayan əsgər döyüşüb düşmənə qalib gələ bilməz. Yeri gəlmişkən, polis də hər gün ön cəbhədədir. O da vuruşur və mübarizə aparır.

***P.S. Vətənpərvərliklə bağlı yazılarımızın sonunda təsəlli üçün qələbə çox yaxındadır yazırdıq. Deyəsən, arzumuz çin olur. Qələbəyə gedən yol əsgərinə, polisinə qucaq açan, onu tək qoymayan Ali Baş Komandanının qətiyyətindən, xalqının inamından və inadından keçir.***

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

## AZƏRBAYCAN RESPUBLİKASI BAŞ PROKURORLUĞUNUN VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTLƏRİNDƏN



*Əvvəli 1-ci səhifədə.*

İyul ayının 14-ü Bakı şəhərində keçirilmiş yürüş və toplantı Azərbaycan xalqının öz Dövlətinə, Ordusuna və Ali Baş Komandanına bir daha tam dəstəyini nümayiş etdirmişdir. Təcavüzkar Ermənistan anlamalıdır ki, Azərbaycan xalqının səbri sonsuz deyil və o, heç zaman ərazilərinin işğalı ilə barışmayacaq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bildirdiyi kimi həlak olan hərbçilərimizin qanı yerdə qalmayıb və qalmayacaq.

Təəssüflər olsun ki, dinc və vətənpərvər ruhda keçən bu aksiya zamanı bir qrup təxribatçı ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan hərəkətlərə yol vermiş, aksiyanın təhlükəsizliyini təmin edən polis əməkdaşlarına müqavimət göstərmiş və zor tətbiq etmiş, nəticədə bir neçə polis əməkdaşına müxtəlif dərəcəli bədən xəsarətləri yetirilmiş, xidməti avtomobillərə ciddi ziyan vurulmuşdur.

Polis əməkdaşları tərəfindən dəfələrlə edilmiş xəbərdarlıqlara məhəl qoyulmadığından, eləcə də vəziyyətin daha da gərginləşməsinin qarşısının alınması üçün görülmüş operativ tədbirlərlə ictimai asayiş bərpa edilmişdir.

Fakt üzrə cinayət işi başlanaraq istintaq-əməliyyat tədbirləri həyata keçirilir.



Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi düşmənlə təmas xəttində ağır döyüşlərin getdiyi mövcud həssas dönəmdə ölkədə ictimai qaydanın və asayişin pozulması hallarının yolverilməzliyini xüsusi olaraq qeyd edir. Eyni zamanda, hazırda COVİD-19 pandemiyası ilə mübarizənin getdiyi bir vaxtda şəhər və rayonlarda kütləvi toplantıların keçirilməsinin ağır nəticələrə səbəb ola biləcəyini xatırladaraq, vətəndaşları təmkinli olmağa, şəhidlərimizin əziz xatirəsini mövcud karantin qaydalarının tələblərini nəzərə alaraq yad etməyə çağırır.

***15 iyul 2020-ci il***

# ŞİRİN CANDAN KEÇƏNLƏR


İlqar Balakişiyev


Səməd Abbasov


İsmayıl Tağıyev


Vüqar Nəsibov

Qanunun aliliyi təmin edilmədən əmin-amanlığı, ictimai asayişi, təhlükəsizliyi qorumaq, sabitliyə, inkişafa nail olmaq mümkün deyil.

Azərbaycanımızın dünyada sabitlik adasına çevrilməsində, şübhəsiz ki, daxili işlər orqanlarının gərgin əməyi, yorulmaz fəaliyyəti durur. Bu uğura gedən yolda 102 illik şərəf salnaməsi yazan Azərbaycan Polisinin itirdikləri də az olmayıb. Cinayətkarlıqla qətiyyətli mübarizədə neçə-neçə igid həmkarımız şəhidlik zirvəsinə ucalıb.

Onların adını unudulmağa qoymuruq, xatirələrini həmişə əziz tuturuq ki, sıralarımıza yeni qoşulanlar qəhrəmanlıqları, şücaətləri ilə polisin tarixinə əbədi həkk olanların, onu daha yaddaqalan edənlərin davamçıları olduqları ilə qürur duyub, fəxr etsinlər. Bu gün "yurda qul, yurda oğul" deyənlərin mübariz simaları gözlərimiz önünə gəlir, adlarını hörmətlə anırıq...

**Şükür Abdullayev** Xocavənd rayonunun Zəmzur kəndində yenicə yaranan Polis Bölməsində polis kiçik serjantı rütbəsilə xidmətə başlayanda ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şiddətli döyüşlər gedirdi. Postda xidmətdə olarkən dəfələrlə ölümlə üzbəüz qalmasına baxmayaraq, çevikliyi, cəsurluğu sayəsində əcələ yaxa verməmişdi. 1991-ci il noyabrın 15-də xain düşmənin posta hücumu zamanı Şükürün son sözləri bu olur: "Son damla qanımıza qədər vuruşacağıq!".

**Polis sıravisi Vahid İbrahimov** 1991-ci ilin iyulunda Goranboyun Erkəş kəndinə pasport rejimini yoxlamaq üçün ezam olunmuşdu. Həmin ərəfədə kənd düşmən hücumuna məruz qalır. Geri çəkilmə əmrinin gəlməsinə baxmayaraq, həmkarımız kəndin müdafiəçiləri olan igid oğullarımızla birlikdə düşmənin üstünə şığıyır. Qeyri-bərabər döyüşdə o, şəhidlik zirvəsinə ucalır.

Bu gün atəşkəs dövründə də polis cəbhədədir. Cinayətkarlıqla, dövlətçiliyimizə xələl gətirmək istəyənlərlə qətiyyətli mübarizədədir. Və bu amal, məslək uğrunda şirin canlarından keçənlərin adları da əbədiyaşarlıq qazanıb.

2013-cü ilin oktyabrında, 2015-ci il noyabrında və 2018-ci il iyulunda ictimai-siyasi sabitliyi pozmaq, təxribatlar, kütləvi iğtişaşlar, terrorçuluq aktları törətməyi planlaşdıran, din pərdəsi altında fəaliyyət göstərən silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi əməliyyatlarında həlak olan **polis polkovniki İlqar Balakişiyevin, polis polkovnik-leytenantı Səməd Abbasovun, polis mayoru Qalib Quliyevin, polis serjantları Vüqar Nəsibovun və İsmayıl Tağıyevin** adı da Vətənsevərlərin yaddaşlarında ölməzlik zirvəsini fəth edib.

Bunlar Azərbaycan Polisinin şərəfli döyüş və xidmət yolunun bir parçasıdır...

Hazırda ölkəmiz yeni bir təhdidlə-koronavirus təhlükəsi ilə üz-üzədir və Azərbaycan Polisi gözəgörünməz düşmənlə döyüşdədir. Qarşılıqlı inama və ehtirama söykənən polis-vətəndaş həmrəyliyi bu çətin və həssas günlərdə daha da möhkəmləndi, daha da bərkidi. İnsanlar da öz növbəsində polisə olan inamını, etibarını nümayiş etdirdilər. Bax, bu xilaskarlıq missiyasını yerinə yetirən asayiş keşikçilərinə verilən yüksək dəyərin, göstərilən etimadın əyani təzahürüdür.

*Teymur Əlizadə, polis kapitanı*

# ADI DA LOĞMANDIR, ÖZÜ DƏ

**Bunu bir daha dəqiqləşdirdim: həkimlə həmsöhbət olanda sözün əvvəli də, sonu da sağlamlıq olur. Bir az obrazlı desəm, həkim adı ağrını özünə çəkir elə bil. Qısası, dərdin dilini həkimlər daha yaxşı bilirlər. Bu, bəlkə də psixoloji amillərlə bağlıdır; ağ xalatlı görəndə insanın ağrısı yadına düşür.**

İllər öncə eşitdiyimiz "filankəsin oğlu, qızı həkimdir, get bir dərdinə çarə qılsın" fikri indi zamanla "ayaqlaşmır". "Niyə"sini yazını səbrlə oxusanız biləcəksiniz...

Adı tale yoluna təsirsiz ötüşməyib. Yeri gəlmişkən, qədim Misirdən Roma İmperatorluğuna qədər bütün cəmiyyətlər elmi hurufla yaxından maraqlanıblar. Romalılar "nomen est omen" yəni "adımız taleyimizdir" deyəcək qədər qəti bir inanca sahib idilər. Peyğəmbərimiz buyurub ki, "qiyamət günü adınız və atalarınızın adı ilə çağırılacaqsınız. Elə isə özünüzə gözəl adlar seçin". Qurani-Kərimdə "Loğman" surəsi və s...

Onu bu gün sıralarımızda xidmət edən orta və gənc nəslin nümayəndələri, elə veteranlarımız da yaxşı tanıyırlar. 50 yaşının tamamında, özü də Azərbaycan Polisinin peşə bayramında onunla görüşəndə kövrək adamlar haqqında gəldiyim qənaətdə yanıldığımı hiss etdim. Sən demə, əslində, kövrək adamlar zamanın sınaqlarından, kiminsə köntöy baxışından, tənəli sözündən tez sınmırlar, əzilmirlər, əksinə, onlar daha mübariz olurlar. Hər çətinə dirəniş göstərib, özləri görməsə də özlərindən sonra gələnlərin sonunun yaxşı olması uğrunda ömürlərini belə qurban verirlər.

O, mənə möcüzə adam təsiri bağışladı: Adın Loğman qoyula və həkim olasan. İki iyulda doğulasan, polisin sırasında olasan...

Səbrinizi sınağa çəkmədimsə, davam edək. Atası həkim olmağını arzulayıb, o isə müstəntiq olmaq istəyirmiş. Bununçün də bütün günü "əli kitabların yaxasındaymış". İllər ötür və ad öz təsirini göstərməyə başlayır. Atası onu 1985-ci ildə Bakıya gətirir və Kimya-bilogiya təmayüllü məktəbə qoyur. Əla qiymətlərlə 1987-ci ildə məktəbi bitirib Azərbaycan Tibb İnstitutuna daxil olur.



***Adının möcüzəsi yenə də köməyinə çatır DİN Tibb İdarəsinin Xüsusi şöbəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Loğman Zeynalovun.***

"1993-cü ildə internaturanı bitirdikdən sonra iş axtardım. İçimdəki paqon sevdası məni rahat buraxmırdı. 1996-cı ildə DİN-in Tibb İdarəsinin 2 nömrəli poliklinikasında mülki həkim kimi xidmətə başladım. Polis mundiri geyinməsəm də arzuma çatmışdım. Hər gün bu müqəddəs mundiri geyinəcəyim günün xəyalını edirdim. Bütün gücümlə çalışırdım. Mənim sənədlərlə işləmək bacarığım və məsuliyyətli olmağım bu gün hər birimizin yaxşı tanıdığı, DİN Tibb İdarəsinin keçmiş rəisi, tibb xidməti polkovniki Bəhruz Səfərəliyevin diqqətini çəkdi. Artıq illərdir ki, burda çalışıram"...

Gəncliyində olduğu kimi, elə bu gün də doğulduğu Biləsuvarın Xırmandalı kəndinə gedəndə qonum-qonşular, kənd camaatı həmkarımızın "uşaq həkimi" olmağını unudurlar.

Elə söhbət əsnasında "böyüklərin ağrısının dili var, bəs uşaqların ağrısının dilini necə tapırsınız?" sualıma cavabı belə oldu: təcrübə...

50-dən geri boylananda qanlı-qadalı müharibə illəri və Qarabağ uğrunda gedən döyüşlərdə itkin düşmüş qardaşı Niyaməddinin sonuncu dəfə gördüyü gülərüz siması gözləri önünə gəlir. Hələ də atasının, anasının, qardaş və bacılarının gözləri yolda, qulağı səsdədir. Onun sorağı ilə yaşayırlar. İllər keçsə də ümidləri ölməyib.

Ömür-gün yoldaşı da ağ xalatlı xilaskardır. Həkimlər ailəsində iki övlad böyüyür: Tuncay və Merac. Görəsən, onların da adı talelərinə işıq salıb gələcək peşə seçimlərində öz möcüzəsini göstərəcəkmi? Bunu, əlbəttə ki, həyat göstərəcək...

Yazının əvvəlində dediyim "filankəsin oğlu, qızı həkimdir, get bir dərdinə çarə qılsın" fikrinin zamanla "ayaqlaş"mamasına gəlincə, müşahidələrimizə əsaslanıb deyə bilərik ki, ötən illərlə müqayisədə son illər həkimlərimiz seçdikləri sahə üzrə ixtisaslaşırlar. Və bu da nəticə etibarilə tibbin inkişafına təkan verir.

Yüzün yarısı əllidir və həmkarımıza hələ bundan 50 il sonra da yaşamaq arzusu ilə...

*Hafiz Təmirov, polis polkovnik-leytenantı*

# Ötən 5 ayda...

## Nəticələr təhlil olunur, birgə mübarizə üçün gələcəkdə də fəaliyyət istiqaməti müəyyənləşdirilir

**2020-ci ilin 5 ayı ərzində ölkə üzrə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən təhlil edilərək ümumiləşdirilmişdir.**

Təhlil zamanı müəyyən edilmişdir ki, cari ilin 5 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq mühafizə orqanları tərəfindən 2435 fakt aşkar edilmişdir ki, onlardan 918-i narkotik vasitələrin qanunsuz satışı, 1402-si qanunsuz əldə edilib saxlanılması, 80-i qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya edilməsi, 35-i isə digər cinayətlərlə bağlı olmuşdur.



Aşkar edilmiş faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 364 kiloqram 100,2 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr çıxarılmışdır.

Müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 336 kiloqram 151,8 qramını marixuana (24,6%), 160 kiloqram 694,7 qramını tiryək (11,8%), 753 kiloqram 388,1 qramını heroin (55,3%), 18 kiloqram 877,6 qramını həşiş (1,4%), 94 kiloqram 594,4 qramını psixotrop maddələr və digərləri (6,9%) təşkil etmişdir.

Aidiyyatı qurumlar tərəfindən ötən ilin müvafiq dövrü ilə müqayisədə yaş kütləsi 15 ton 263 kiloqram olan 54 min 537 ədəd yabanı halda bitmiş narkotik xassəli bitkilər aşkar edilərək müvafiq qaydada məhv edilmişdir. Yaş kütləsi 491 kiloqram 300 qram çətənə, 1 kiloqram 700 qram xaş-xaş narkotik tərkibli bitkilər müəyyən edilərək prosessual tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir.

1435 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir.

Ümumilikdə hüquq mühafizə orqanları tərəfindən aşkar edilmiş cinayət faktlarının 115-i qaçaqmalçılıq yolu ilə törədilmiş və qeyd olunan faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 636 kiloqram müxtəlif növ narkotik vasitələr çıxarılmışdır.

Bundan əlavə, aşkar edilmiş cinayət faktlarının 178-i qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 429,7 kiloqram narkotik vasitə və 43 kiloqram psixotrop maddə müsadirə edilmişdir.

Eyni zamanda qanunsuz dövriyyədən çıxarılmış 1 ton 364 kiloqram 100,2 qram narkotik vasitənin 336 kiloqramını (24,6%) yüngül təsirə malik olan marixuana təşkil etmişdir.

Təhlil göstərir ki, cari ilin 5 ayı ərzində qeydiyyata alınmış cinayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 325 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi 54,7 kiloqram, qrup şəklində törədilmiş cinayətlərin sayı 65 fakt, əvvəllər cinayət törətmiş şəxslər tərəfindən törədilən cinayətlərin sayı 147 fakt, məsuliyyətə cəlb edilən şəxslərin sayı 234 nəfər artmışdır.

# Ünsiyyət qurmaq xidmətin əsas şərtidir

**Hər bir polis əməkdaşı xidmətdə olarkən gün ərzində bir neçə və daha çox vətəndaşla ünsiyyət qurur. Vəzifəsinin ona verdiyi səlahiyyət çərçivəsində asayişi qoruyur, cinayətkarlıqla qətiyyətlə mübarizə aparır, yardıma tələsir, köməyə çatır polis.**

**Mövzunun aktuallığını nəzərə alıb polis əməkdaşları üçün ünsiyyət qaydalarını diqqətinizə çatdırırıq.**




1. İnsanın intellektual səviyyəsinə dəlalət edən amillərdən biri də nitq mədəniyyətidir. Ünsiyyət zamanı polis əməkdaşı fikirlərini sadə, anlaşıqlı şəkildə çatdırmalı, eyni zamanda, həmsöhbətini sonadək dinləməyi bacarmalıdır. Yaşlı adamlarla, xüsusən, qadınlarla söhbət zamanı onlara fikirlərini birinci söyləmək imkanı verilməlidir.
2. Polis əməkdaşı söhbət əsnasında, onu əhatə edən insanlara öz şəxsi problemləri barədə danışmamalıdır. Söhbətlərin mövzusu həmsöhbətiniz üçün aydın, anlamlı və yaxın olmalıdır. Onun üçün qəbulolunmaz mövzuda söhbət aparmaqdan çəkinin.
3. Başqalarının yanında həmsöhbətlərinin şəxsiyyətinə toxunacaq tərzdə irad tutmaq düzgün deyil. İrad təklikdə və nəzakətli şəkildə bildirilməlidir.
4. Polis əməkdaşı həmsöhbətlərindən hər hansı birini üstün tutduğunu biruzə verməməlidir. Bir nəfərə qarşı olan hörmət və diqqətin digərlərindən artıq olduğunu nümayiş etdirmək xoşagəlməz münasibətlərə gətirib çıxara bilər.
5. Hər hansı yığıncaqda, adamların toplaşdıqları yerlərdə ən yaxın adamlara belə "Siz" kəlməsilə müraciət olunmalıdır.
6. Əgər polis əməkdaşı ona xitabən deyilən sözü eşitməyibsə və ya anlamayıbsa, "Nə?" və "Necə?" sualları ilə deyil, "bağışlayın", yaxud "üzr istəyirəm" və ya "xahiş edirəm" ifadələri ilə sualın təkrarlanması üçün müraciət etməlidir.
7. Kiminsə ünvanına rişxəndli gülüşdən, kinayəli baxışdan, replikadan çəkinmək lazımdır.
8. Polis əməkdaşı danışan adamın səhvini düzəltməyi zəruri hesab edirsə, bunu olduqca mədəni və nəzakətli formada, incəliklə həyata keçirməlidir.
9. Söhbət edənlərə yaxınlaşarkən, söhbətin mövzusu soruşulmamalı, dərhal müdaxilə olunmamalıdır.
10. Bir-birindən xeyli aralıda durmaqla söhbət etmək qəbul olunmur.
11. Söhbət əsnasında pauzalar yaratmaq, piyada yol gedərkən həmsöhbətlərini dayandırıb söhbətinə qulaq asmağa vadar etmək müsahiblərdə narazılıq yarada bilər. Danışıq zamanı əlqol ölçmək, müsahibin paltarına toxunmaq, tez-tez onun çiyninə vurmaq ətrafdakılara xoş təsir bağışlamır. Ünsiyyət zamanı müsahibin əhvali-ruhiyyəsi nəzərə alınmalıdır. Əgər qarşıdakı adamın ovqatı təlx, yaxud kədərlidirsə, onunla zarafat etmək məqsədəuyğun deyil.

# İnsanları nələr motivasiya edər?

Həyat insanlara hər zaman sevinc bəxş etməz. Yaşadığımız bu zamanda insanlarla, xəstəliklərlə və saymaqla bitməyəcək müxtəlif nüanslarla mübarizə aparmalıyıq. Bəziləri sadaladıqlarımızla əzmlə vuruşmağına baxmayaraq, pessimizmə qapılır, güclərinə inanmır və geri çəkilirlər.

İndi bütün dünya koronavirus adlı pandemiyayla mübarizədədir. Əldə etdiyimiz məlumatlara görə xeyli sayda insan bu xəstəliyə yoluxub, həyatını itirib. Bir çoxumuz hər şeyin yaxşı olacağına inanarkən, bəzilərimiz həyatdan küsüb sadəcə yaşamaq xətrinə vaxtımızı dəyərsizləşdiririk. İnsanları nələr motivasiya edər?

***Bəs bu müddətdə motivasiyamızı necə yüksək tutmalıyıq?***

Yaşadığınız həyatın hər anının qiymətini bilin. Əslində, bir çox insanın fərqində olmadığı bir şey var: Zaman bizə verilmiş ən dəyərli hədiyyədir. Xoşbəxt olmaq, bədbinliyə qapılmamaq hər kəsin öz əlindədir. İnsanlar bədbinliyə qapılanda “mən nə etsəm olmur, başıma gələn heç bir hadisə mənə sevinc gətirmir” düşüncəsində olurlar. Bu düşüncədəki insanlar təəssüf ki, necə yaşamağı bilmirlər. Belə olan vəziyyətdə maraqlı sual meydana çıxır: -Necə yaşayaq ki, xoşbəxt olaq?

***Sizin sevincinizə mane olan nəsnəni tapın.***

Yəni gün ərzində düşündüyünüz, dərdini çəkdiyiniz nədirsə onu zehninizdən uzaqlaşdırmağa çalışın. Bu, heç də asan deyil. Amma çalışmasan, nəticəsini də görə bilməzsən. Xoşbəxt olmayan insanlar həyatda nə məqsəd güddüklərini bilməyən və sabaha gözlərini açmaq üçün hədəfi olmayan insanlardır.

***Xoşbəxt olmaq üçün yaşam məqsədi tapın.***

Məqsədinizə çatmaq üçün hədəflərinizi müəyyənləşdirin. Əlinizdə olan hər şeyin qədrini bilin. Gileylənmək, özündə olanı bəyənməyib başqasında olanı gözündə böyütmək insanları həmişə bədbin edir. Unutmayın artıq tamah daş yarar. Əvvəlcə, hər kəs əlində olanı yüksək qiymətləndirməyi bacarmalıdır.

Ən böyük bədbəxtlik özünü xoşbəxt etməyi bacarmayanlardır. Bu insanlar hər zaman kiminsə sevgisinə, qayğısına ehtiyac duyurlar və tək qaldıqları zaman depressiv olurlar. Halbuki insana ən böyük sevinci məhz özü yaşadır.

Hər kəsin sevgisi gerçək olmur. Yalan sevgi sözlərinə inanıb xoşbəxt olmaqdansa, yalnız qalıb özünü müəyyən müddətlik bədbin hiss etmək yaxşıdır. Həmin insanlar təkbaşına film izləməkdən, kitab oxumaqdan, gəzməkdən zövq almağı sınamalıdır.

***Əsas faktorlardan biri-qorxularınızla üzləşin.***

Onlardan qaçmaq yerinə mübarizə aparmağa çalışın və siz həmin qorxuya qalib gəldikdə “mən bacardım”,-deyib fəxr və sevinc hiss edəcəksiniz.

Öz şəxsi fikriniz olsun və sonuna qədər heç kim sizi dəstəkləməsə belə siz fikrinizin arxasında durun.

Ətrafımızda paxıl, yalançı, qeybətcil və s. hər xüsusiyyətə malik insanlar var və biz hər sözə əhəmiyyət verməməyi, önəmsəməyi bacarmalıyıq. Əlbəttə, bəziləri bizim xeyrimizə deyilir. Onları dinləmək və əməl etmək vacibdir.

Sonda yaşadığınız həyatı sevin və dəyərləndirin. Bir dəfə yaşamaq şansımız olduğunu unutmayaq. Nə olsa belə həyata küsməyin. Hər zaman yenidən başlamağı bacarın.

## *TORPAQ ŞAHİD, OĞULLAR ŞƏHİD OLUR...*



**Vətən uğrunda canından, qanından keçərək düşmənin qarşısında qeyrət qalasına dönən, doğulduğu torpağa övladlıq borcunu alnıaçıq, üzüağ yerinə yetirən qəhrəman oğullarımızdan biri də Ziyəddin İsgəndərov idi.**

1969-cu il may ayının 20-də Ağdamın Çəmənli kəndində dünyaya göz açmışdı. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollandı. Həqiqi hərbi xidmətini başa vurub doğma kəndinə qayıtdı.

Düşmən artıq bir il idi ki, bizə yağı kəsilmişdi. 1989-cu ildə Ziyəddin əsgər geyimini əynindən çıxarıb uşaqlıqdan arzusunda olduğu polis mundirini geyindi.

Ağdam Rayon Daxili İşlər Şöbəsinin Xüsusi-təyinatlı polis dəstəsinin Post-Patrul Xidmətində polis nəfəri kimi xidmətə başladı. Günü-gündən azğınlaşan düşməni yerinə oturtmaq üçün silaha sarılıb döyüşlərə yollandı. Döyüşlərin birində ağır yaralanmasına baxmayaraq müalicəsini yarımçıq qoyub yenidən əlinə silah aldı. Kərkicahan, Kosalar, Meşəli Əmiralılar, Xocavənd, Kuropatkina, Cəmillilər, Sırxavənd uğrunda gedən ölüm-dirim savaşında şücaət göstərdi.

1992-ci ildə Xocalıda Qaraqaya uğrunda gedən döyüşlərdə böyük arzularla çırpınan köksünü paralayan düşmən gülləsi həyatına son qoydu.

Polis serjantı Ziyəddin İsgəndərov cəmi 23 il ömür yaşadı...

Bu gün doğulub boya-başa çatdığı Çəmənli kəndindəki orta məktəb şəhid həmkarımızın adını daşıyır.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

## MÜDRİKLƏR DEYİBLƏR...

❖Zəmanə ancaq dayazda olanları dəyişir, dərin qatlara nüfuz edə bilmir.
**Əbu Turxan**

❖Süleyman mülkünü axtarma ki, o, hardadır Mülk elə həmin mülkdür, bəs Süleyman hardadır?
**Nizami Gəncəvi**

❖İnandığınız kimi yaşamasanız,



yaşadığınız kimi inanarsınız.
**Hz.Ömər**

❖Ağılsızlar oğruların ən zərərliləridir. Zamanınızı və sevincinizi oğurlayarlar.
**İohann Volfqanq Göte**

❖Öyrətmək iki dəfə öyrənmək deməkdir.
**İosif Jober**

❖Düşüncəni dəyiş ki, dünyanı dəyişəsən.
**Brayan Treysi**

❖Başqalarının izi ilə gedən iz qoya bilməz.
**Con İ.Brannon**

❖Ağıllı öz uğursuzluqlarının səbəbini özündə, nadan isə başqalarında axtarır.
**Konfutsi**

❖Əxlaqı tərbiyə edən ən nadir kitab – vicdandır. Onunla tez – tez məsləhətləşmək lazımdır.
**Paskal**

❖Tarix yox, səhvlər təkrarlanır.
**Abdulhamid Han**

❖Ən böyük fəlakətlər içində belə ümidini itirmə, unutma ki, ilik sərt sümüyün içindən çıxır.
**Hafiz Şirazi**

❖Yaxşı qərarlar təcrübədən qaynaqlanar. Təcrübələr isə pis qərarlardan.
**Barri Le Patner**

❖Ağıllı insan düşündüyü hər şeyi söyləməz, ancaq söylədiyi hər şeyi düşünər.
**Aristotel**

❖Əgər dostum düşmənlərimlə dostluq edirsə, onunla dostluğu davam etdirmək olmaz.
**İbn Sina**

İyulun 8-də saat 3 radələrində Zaqatala rayonunun Çobankol kənd sakini F.Nurullayevanın evində baş vermiş yanğınla əlaqədar Zaqatala RPŞ-nin əməkdaşları tərəfindən aparılmış araşdırmalarla iyulun 6-da kənd sakinləri R.Bədəlovun və F.Kərimovun həmin evdən məişət əşyaları və spirtli içkilər oğurlamaları, izi itirmək məqsədilə evi qəsdən yandırmaları müəyyən edilmişdir.

R.Bədəlov və F.Kərimov polis əməkdaşları tərəfindən saxlanılmışlar.

Araşdırma aparılır.

******

Kürdəmir RPŞ əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Qarasu kənd sakini Z.Zülfüqarovdan müvafiq sənədləri olmayan, nömrəsi silinmiş “Tula” markalı yivsiz ov tüfəngi götürülmüşdür.

******

Ağcabədi RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Aran kənd sakini, əvvəllər məhkum olunmuş A.Cabbarov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan marixuana aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı qundağı kəsilmiş “TOZ-8” markalı tüfəng, həyətyanı sahəsindən isə 15 kiloqram marixuana götürülmüşdür.

******

Ağsu RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində iyulun 9-da şəhər sakini A.Feyzullayevin 3 baş camışını və 4 baş inəyini otlaq sahəsindən oğurlamaqda şübhəli bilinən F.Məmmədov saxlanılmışdır.

Ətrafında aparılmış əməliyyat tədbirləri ilə onun iyulun 3-də şəhər sakini olan daha bir nəfərin 3 baş inəyini otlaq sahəsindən oğurlaması da müəyyən edilmişdir.

******




İyulun 10-da saat 23 radələrində Bakı şəhər sakinləri H.Zeynallı və A.Ağayev Xətai Rayon Mühafizə İdarəsinin əməkdaşları tərəfindən şübhəli şəxs qismində saxlanılaraq 36-cı Polis Bölməsinə gətirilmişlər.

Onların əllərindəki polietilen torbaya baxış zamanı 4000 manat dəyərində mobil telefon aksesuarları, habelə A.Ağayevdən marixuana aşkar edilərək götürülmüşdür.

Ətraflarında aparılmış əməliyyat tədbirləri ilə onların qeyd edilən əşyaları H.Zeynallının işlədiyi mağazadan oğurlamaları müəyyən edilmişdir.

Araşdırma aparılır.

******

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Yasamal rayonu ərazisində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş T.Qaranizadədən “Makarov” markalı tapança və 5 ədəd patron götürülmüşdür.

******

Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər məhkum olunmuş R.Axundov saxlanılmışdır. Yaşadığı evə baxış zamanı isə 7 kiloqram 60 qram heroin və 3 kiloqram 260 qram metamfetamin aşkar edilərək götürülmüşdür.

******

İyulun 13-də Sabirabad rayonunun Əhmədabad kəndi ərazisində kənd sakini Q.İsgəndərov xuliqanlıq zəminində qonşusu N.Səftərovun başına daşla, ov tüfəngindən açdığı atəşlə isə ayaq nahiyəsinə xəsarət yetirmişdir.

N.Səftərov xəstəxanaya yerləşdirilmişdir.

Sabirabad RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Q.İsgəndərov saxlanılmış və ondan müvafiq sənədləri olmayan 1 ədəd “TOZ-16” markalı tüfəng götürülmüşdür.

## İyul ayının 8-dən 14-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 153 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 11 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 130, o cümlədən borclu şəxs qismində axtarışda olan 84 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 7 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 9 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 74 fakt müəyyən edilmişdir.




İtaliyanın cənubunda Neapol Gömrük Mühafizə Polisi Suriyada İŞİD tərəfindən istehsal olunan 14 ton narkotik həb ələ keçirib. Bu, dünyada indiyə qədər bir dəfəyə ələ keçirilən ən yüksək miqdarda amfematin həbidir. Bu barədə Neapol Gömrük Mühafizə Polisinin verdiyi açıqlamada qeyd olunur.

Neapol Prokurorluğu tərəfindən Salerno Limanında baş tutan əməliyyatda ələ keçirilən 84 milyon amfematin həbinin Suriyadakı İŞİD silahlıları tərəfindən təşkilatı maliyyələşdirmək üçün istehsal edildiyi bildirilir. Bu qədər böyük miqdarda amfematin həbinin qanunsuz satışının təşkilatı 1 milyard avrodan çox maliyyə ilə təmin edə biləcəyi vurğulanır.

✦✦✦✦✦

Birləşmiş Ərəb Əmirliyinin Daxili İşlər Nazirliyi koronavirusa yoluxmuş insanları müəyyən etmək üçün təlim görmüş itlərdən istifadə etməyə başlayıb. Bu barədə nazirlik "Twitter"də açıqlamasında bildirib.

Qeyd edilib ki, polis əməkdaşlarının bu məqsədlə itlərə keçdikləri təlimlər müvəffəqiyyətlə başa çatıb. İki həftəlik təlim keçirilən itlər kütləvi toplaşan insanları qoxulamaqla koronavirusa yoluxmuş xəstəni aşkar edə bilir. Xidməti heyvanların virusa yoluxmanı aşkar etmə dəqiqliyi 92 faizə bərabərdir.

Bundan əlavə, BƏƏ Daxili İşlər Nazirliyi vərəm və malyariya kimi digər təhlükəli xəstəlikləri olan xəstələri müəyyən etmək üçün də itlərdən istifadə etmək qərarına gəlib.

✦✦✦✦✦

BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin (UNODC) hesabatına əsasən, dünyada vəhşi heyvan və bitkilərlə qanunsuz ticarət geniş yayılıb. Fil, kərgədan və pələngləri yanaşı, panqolinlərin qaçaqmalçılığı da son dövrlərdə artıb.

Peşəkar qaçaqmalçılar fil dişi ilə yanaşı, Asiyada xüsusilə yüksək qiymət verilən heyvanlara da diqqəti artırıblar.

Hesabatı təqdim edən UNODC direktoru bildirib ki, nadir heyvan növləri ilə qanunsuz ticarət bir tərəfdən onların nəslinin kəsilməsini sürətləndirir, digər tərəfdən isə insanların sağlamlığını təhlükə altına salır. Belə ki, alimlər ötən aylarda COVID-19 törədicisinin heyvandan insana keçməsində panqolinlərin aralıq daşıyıcı olması barədə ehtimallar irəli sürüblər. Mütəşəkkil cinayətkar dəstələrin yaratdığı transmilli şəbəkələr vəhşi heyvanların ticarətindən böyük mənfəət əldə edirlər. Lakin bu zaman unudulur ki, son onilliklərin bütün yeni infeksiya xəstəliklərinin dörddəüç hissəsi heyvanlardan insanlara keçib. Vəhşi təbiətin bu cür istismarı iqlim və növ müxtəlifliyinə zərbə vurmaqla yanaşı, insanların sağlamlığı üçün təhlükə mənbəyinə çevrilir.

“Vəhşi təbiətə qarşı cinayətlərə dair beynəlxalq hesabat” ilk dəfə dörd il bundan öncə hazırlanıb. Hazırkı hesabat 149 ölkənin gömrük orqanlarının aşkarladığı faktların yer aldığı statistikanı əks etdirir. 1999-cu ildən bəri 6 min müxtəlif heyvan və bitki növünün qeyri-qanuni ticarəti aşkarlanıb.

***Natiq Cavadov***

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 7300

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik